***Nəbi Xəzri***

***İradə möcüzəsı***

*Sizə xəstə demək? Gəlməyir dilim,*
*Sağlamlıq dilərəm, Heydər müəllim!*

Urək günəş kimi
nur saçan zaman
Talelər sığınır hər zərrəsinə.
Zəka iradəylə qovuşan zaman
Dönür iki əsrin təntənəsinə.
İlahi qüdrət var
məğrur insanda
Bu qüdrət nadirdir dünya üzündə.
Mətin iradələr yıxılanda da
Daha da ucalır insan gözüində.
Bu sifət yaraşır
Müqəddəslərə,
Adıyla ürəklər çıraqban olur.
Xeyirxah insanlar, cılız kəslərə
Böhtan yazsa belə, mehriban olur.
Kişi kişi kimi
Yaşasın gərək,
Kişilik deyildir
Dərdə sevinmək.
Günəş üfüqlərdən
yerə ensə də
Onun həmdəm olur uca baxtına.
O, özü qəfildən xəstələnsə də
Sağlamlıq diləyir doğma xalqına.
Yurda qanad verdi

şöhrətim üçün
Burda hər qarışda zər dəfinə var.
80 yaş nədir ki, millətim üçün
Ələsgər ömrünə bir qərinə
var!
Arzu işığına yol gedirəm
mən,
İnam üstələyir insan səbrini.
Sabahkı əmrini eşidirəm mən:
"Doğma Qarabağa hücum" əmrini.
Qəzəbi üzdədir,
eşqi dərində,
Qadirdir mənəvi qələbəsilə!
Əməli salehlər yer üzərində
Möcüzə yaradır iradəsilə.
Möcüzə yaradır,
yaradacaqdır,
Onun inamı da, sözü də haqdı.

***27 aprel 2003-cü il***

***Xəzri N. İradə möcüzəsi // Azərbaycan. – 2003. - 4 may. – S.4.***